1-1.qxd 17.04.2017 13:11 Page 1



“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 07 (1000) | 17 aprel 2017-ci il | Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## İlham Əliyev Türkiyənin sabiq Prezidenti Abdullah Gülün başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev Türkiyə Respublikasının sabiq Prezidenti Abdullah Güllü qəbul edib.**

Dövlət başçısı Türkiyə Respublikasının sabiq Prezidenti Abdullah Güllə Bakıda, Türkiyədə və başqa ölkələrdə keçirdiyi görüşləri məmnunluqla xatırladı.

“Azərbaycan hər zaman bizim qəlbimizdə, könlümüzdədir”, - deyən Türkiyə Respublikasının sabiq Prezidenti Abdullah Gül Türkiyədə Baş nazir və prezidentlərin, o cümlədən özünün də ilk xarici səfərlərini Azərbaycana etməsindən məmnunluğunu ifadə etdi. Abdullah Gül ölkəmizə hər gəlişi zamanı Azərbaycanın sürətli inkişaf etdiyinin və daha da gözəlləşdiyinin şahidi olduğunu dedi.

Öz növbəsində dövlət başçısı kimi ilk rəsmi səfərlərinin Türkiyəyə həyata keçirdiyini məmnunluqla qeyd edən Prezident İlham Əliyev yüksək rütbəli dövlət məmurlarının da ənənəvi olaraq bu cür qarşılıqlı səfərlərinin önəmini vurğuladı.

Söhbət zamanı dövlətimizin başçısı son bir neçə ildə Azərbaycanda müxtəlif sahələrdə həyata keçirilən genişmiqyaslı islahatlarla bağlı məlumatları diqqətə çatdırdı.





## İlham Əliyev Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir-Mingəçevir stansiyası hissəsinin açılışında iştirak edib

Azərbaycan Prezidenti Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir-Mingəçevir stansiyası hissəsinin açılışında iştirak edib. Dövlət başçısı yolun texniki göstəricilərini əks etdirən stendlərə baxdı.

“Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində Mingəçevir-Bəhramtəpə avtomobil yolunun Mingəçevir şəhəri-Mingəçevir dəmir yolu stansiyası arasında yerləşən hissəsinin yenidən qurulması işləri yekunlaşıb. Bu hissənin uzunluğu 16,5 kilometrdir. Yol üçüncü texniki dərəcədən ikinci texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə əsasən, yol iki hərəkət zolağından ibarətdir.

## Səyyar görüşlər davam edir



Ölkə rəhbərliyinin müvafiq tapşırığına uyğun olaraq rayon İcra hakimiyyəti başçısının şəhər, qəsəbə və kəndlərində mütəmadi olaraq sakinlərlə səyyar görüşləri davam etdirilir. Növbəti belə görüş Həsənsu kəndində təşkil olundu.Tədbirdə həmçinin Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının məsul işçisi Əlibaba Əliyev də iştirak edirdi. Əvvəlcə rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, eləcə də ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq Ağstafada həyata keçirilən iri miqyaslı sosial infrastruktur layihələrdən, əhalinin məşğulluğunun maksimum təmin olunması məqsədi ilə yaradılmış yeni iş yerlərindən, abadlıq, quruculuq, yenidənqurma işlərindən geniş söz açdı. Qeyd olundu ki, ötən ildə Həsənsu kəndinin küçələri xırlanmışdır, bu il isə kəndi rayon mərkəzi ilə əlaqələndirən yeni dənqurulan Ağstafa-Köçəsgər yoluna artıq asfalt örtüyünün qoyulması işləri sürətlə davam etdirilir. Eyni zamanda əhalinin elektrik enerjisi, təbii qaz, içməli və suvarma su təminatı daim diqqətdə saxlanmaqla günü-gündən yaxşılaşdırılmaqdadır. Sonra sakinlərin təklif və müraciətləri dinlənildi. Həmçinin tədbirdə çıxış edən kənd ictimaiyyətinin nümayəndələri Ziyadxan Səmədov və Nazim Eminov kənd sakinləri adından onlara göstərilən diqqətə və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə etdilər.

1-1.qxd 17.04.2017 13:11 Page 2



# Karvan-L" EKO sənaye parkında istehsal olunan məhsul satışa çıxarıldı



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yerlərdə investisiya qoyuluşunun cəlb edilməsi, sənaye zonalarının yaradılması və əhalinin məşğulluğunun artırılması barədə tapşırığına uyğun olaraq Ağstafada yaradılmış, özündə istehsal və emal müəssisələrini birləşdirən "Karvan-L" EKO sənaye parkı fəaliyyətini uğurla davam etdirir. 19 oktyabr 2016-cı il tarixdə Prezident İlham Əliyevin Ağstafa rayonuna növbəti səfəri çərçivəsində açılışını etdiyi "Karvan-L" EKO sənaye parkında yaradılan şəraiti yüksək qiymətləndirmişdi. Dövlət başçısı sənaye parkında hazır müəssisələrin açılışını edərək bildirmişdir ki, "Regionların inkişafı, sənaye potensialının gücləndirilməsi, yeni iş yerlərinin, ixrac potensialının yaradılması, kənd təsərrüfatının inkişafı - yəni, bu sənaye parkında bizim siyasətimiz öz əksini tapıb".***



Bu gün sənaye parkında 12 müəssisə fəaliyyət göstərir, bir zavodun inşası isə davam edir. Belə ki, burada polietilen örtüklərin istehsalı, plastik kütlələrin təkrar emalı, xüsusi dəmir konstruksiyalar istehsalı, istismara yararsız avtomobil şinlərinin təkrar emalı, dəmir dam örtüklərinin istehsalı, şüşə və şüşə konstruksiyaların istehsalı, plastik qapı-pəncərə və plastik konstruksiyaların istehsalı, yerli xammaldan bəzək və mozaika daşlarının istehsalı müəssisələri, eləcə də üzvi turşuların istehsalı qurğusu, günəş enerjisi ilə dolan batareyaların istehsalı sahəsi və bioorqanik kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi fəaliyyət göstərir. Hazırda sənaye parkının layihəsinə uyğun olaraq istehsal gücü sutkada 500 kv. metr olan keramika dam örtüklərinin istehsalı zavodunun və sutkada 2000 ədəd şüşə qablar istehsal edən müəssisəsinin tikintisi işləri sürətlə davam etdirilir. Eyni zamanda layihəyə geniş ərazidə meyvə bağlarının salınması da daxildir.

# "N" saylı hərbi hissənin yaranması günü qeyd olundu

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Ağstafa rayon ərazisində yerləşən "N" saylı hərbi hissəsinin yaranması günü münasibəti ilə təntənəli tədbir keçirildi. Tədbirdə hərbi hissənin şəxsi heyəti, Ağstafa rayon İcra hakimiyyətinin başçısı, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edirdi.**

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başladı. Ardınca vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra hərbi hissənin komandiri polkovnik İ.İbrahimov bu münasibətlə hərbi hissənin şəxsi heyətini təbrik etdi və ölkə rəhbərliyinin hərbiçilərə göstərdiyi yüksək diqqət və qayğıdan, bu sahədə əldə olunan böyük uğurlarımızdan geniş bəhs edərək sözü Ağstafa rayon İcra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevə verdi. Öz çıxışında İcra başçısı əsgərləri, çavuşları, və zabitləri bu xoş gün münasibəti ilə səmimi qəlbdən təbrik etdi. Qeyd olundu ki, ordumuz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin istənilən an verəcəyi əmrlə bütün işğal altında olan torpaqlarımızı mənfur düşmənimizdən azad etmək gücündədir. Ordumuz bunu ötən ilki aprel döyüşlərində göstərdiyi əvəzsiz qəhrəmanlığı ilə bir daha sübut etdi.

Çıxışların ardınca şəxsi heyətin mükafatlandırma mərasimi təşkil olundu. Xidmətdə fərqlənən, yüksək nizam və intizamlılıqla seçilən hərbiçilər "Fəxri Fərman"lar və qiymətli hədiyyələrlə təltif olundular,



bir sıra əsgərlərə çavuş rütbələri verildi.

Daha sonra hərbi hissənin şəxsi heyəti fəxri tribuna önündən təntənəli marşla nümunəvi yürüş etdi.

Hərbi hissənin yaranması günündə orada yaradılan şəraitlə yaxından tanış olundu. Tədbir rayonun mədəniyyət və incəsənət nümayəndələrinin təqdimatında geniş konsert proqramı ilə davam etdirildi.

# Narkomanlığa qarşı mübarizə gücləndirilməlidir

***Ağstafa rayon Təhsil Şöbəsinin akt zalında "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" mövzusunda tədbir keçirildi.***



Tədbirdə, Daxili işlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin, Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun, rayon İcra hakimiyyətinin məsul işçiləri, eləcə də rayon Təhsil şöbəsinin əməkdaşları iştirak edirdi.

Tədbirdə çıxış edən natiqlər ölkəmizdə narkomaniya və radikal dini cərəyanlara qarşı mübarizənin gücləndirilməsi sahəsində keçirilmiş tədbirlər barədə ətraflı məlumat verdilər. Qeyd olundu ki, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasını qarşısını almaq məqsədi ilə vətəndaşların aktiv fəaliyyət göstərməsi üçün şəhər və rayonlarda etimad telefonlarının səmərəli istifadəsi üçün daha geniş təbliğatın aparılması və müvafiq qurumlar tərəfindən narkomanlığın qarşısının alınması ilə bağlı diqqətin artırılması, həmçinin narkomanlıqla bağlı hüquqpozmalara meyilli olan yetkinlik yaşına çatmayanların və gənclərin yaşayış yerləri, işlədiyi və təhsil aldığı inzibati ərazilər üzrə yerli icra hakimiyyəti, bələdiyyə, polis orqanları, təhsil işçiləri, əmək kollektivləri və müvafiq komissiyalar arasında əlaqələrin genişləndirilməsi vacibdir. Psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında qanunvericiliyin müddəalarının və tələblərinin əhaliyə izah edilməsi, narkotik vasitələrin, psixotrop maddələrin qəbulu və bununla bağlı problemlər haqqında ictimai maarifləndirmə işinin genişləndirilməsi, təhsil müəssisələrində təhsil işçiləri, məktəblilər və tələbələr arasında narkotiklərin insan orqanizminə məhvedici təsiri, həmçinin narkomanlığın cəmiyyətə və insanların sağlamlığına ziyani barədə təbliğat aparılması, eyni zamanda şagird və tələbələrin dünya görüşünün formalaşdırılması məqsədi ilə narkotik vasitələrin, prixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı kütləvi idman yarışlarının keçirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə geniş məlumat verildi.

Təlim-məşğələ işgüzar şəraitdə keçdi.

Tədbirdə iştirak edənlər müzakirə olunan məsələyə öz münasibətlərini bildirdilər və çıxış edərək narkomanlığa qarşı mübarizədə hamının fəal iştirak etməsinin vacib olduğunu bildirdilər.

# Şəhərdəki daha bir küçə-Cəfər Cabbarlı küçəsi abadlaşır

***Ağstafa şəhərində aparılan tikinti-quruculuq və abadlıq işləri bu gün də uğurla davam etdirilir. Rayon rəhbərliyi Ağstafa şəhərinin bütün küçələrindəki vəziyyətlə mütəmadi tanış olur, vətəndaşların arzu və təkliflərini dinləyir və onların küçələrinin abadlaşdırılması üçün irəli sürdükləri təkliflərin həyata keçirilməsinə xüsusi diqqət və qayğı göstərir. Belə görüşlərdən biri Cəfər Cabbarlı küçəsində olmuş və həmin keçənin sakinləri ilə səmimi söhbətlər aparılmış və təklifləri dinlənilmişdir.***

Bu görüş əsasında bir neçə gün bundan əvvəl Cəfər Cabbarlı küçəsində abadlıq işlərinə başlanılmışdır. İnşaatçılar nəzərdə tutulmuş işlərin vaxtında başa çatdırılması, kammunal evlərin dam örtüklərinin təzələnməsi, küçənin abadlaşması üçün bütün qüvvələrini səfərbər etmişlər. Artıq demək olar ki, küçənin xeyli hissəsində təmir işləri aparılmış, bardür, beton-səki daşları düzülmüşdü. Rayon İcra Hakimiyyətinin memarlıq və tikinti şöbəsindən bildirdilər ki, Cəfər Cabbarlı küçəsində təmir işləri ilə yanaşı həmin küçədə yerləşən kommunal evlərin dam örtüklərinin təzələnməsinə də başlanılmış və bu istiqamətdə xeyli iş görülmüş, bir neçə kommunal evin dam örtüyü təzələnmişdir.



1-1.qxd 17.04.2017 13:12 Page 3



# Bir foto şəklin tarixi

***Yəqin ki, bu foto-şəklə baxan kimi dalğın ağ saçları qarayanız çöhrəsinə xüsusi yaraşıq verən qırğı gözlü, boz makintojlu kişini tanıdınız. Və həmin an da sevincək halda gülümsədiniz: bu ki, hamının sevimlisi, dahi xalq şairimiz Səməd Vurğundur!***



Bəs onun yanındakı kimdir? Bu sual hamını maraqlandırır. Dahi şairin yanında ən yaxın dost kimi dayanan, duruşunda, baxışında hədsiz fəxarət hissi duyulan, bir az da şairdən cavan görünən bu adam kimdir görəsən?

Bu maraq bizə də rahatlıq vermədi. Ona görə qarşımıza məqsəd qoyduq ki, bu adamın kim olduğun axtarıb tapmaq, onun barəsində ətraflı məlumat toplayıb oxuculara təqdim etmək. Əlimizdə bircə fakt vardı ki, foto-şəkli redaksiyamıza təqdim edən şəxs ağstafalı idi.

Axtarışlar,sorğu-suallarhədər getmədi. Beş-altı aydan sonra öyrəndik ki, həmin adam vaxtilə Ağstafa şəhərində yaşamış Mustafa Abdulla oğlu Sadıqovdur. Bunu öyrənəndən sonra mərhum Mustafa kişinin ailəsi ilə görüşdük, övladları, nəvə-nəticələri, yaxın qohumları ilə tanış olduq. Onun barəsində öyrəndiyimiz məlumatları və foto-şəklin tarixini oxucularımıza da bildirmək istəyirik...

Mustafa Abdulla oğlu Sadıqov 1905-ci ildə Qazax rayonunun Birinci Şıxlı kəndində doğulmuşdur. Sonralar valideynləri Muğanlı kəndinə köçdüyündən burada böyümüş, orta təhsil almışdır. Sonra Qazax Pedaqoji məktəbinə daxil olmuş, oranı müvəffəqiyyətlə bitirərkən rayonun kəndlərində müəllim işləmişdir.

Tale elə gətirmişdir ki, bir neçə ildən sonra Mustafa Sadıqov ixtisasını dəyişmək fikrinə düşərək Tblisi Dəmiryol İnstitutuna daxil olmuşdur. 1936-cı ildə institutu yaxşı qiymətlərlə bitirərək dəmiryol mühəndisi kimi Azərbaycanın müxtəlif guşələrində çalışmışdır. O, Tbilisinin Naftuliqi stansiyasında, Azərbaycanın Hacıqabul, Ələt, Biləcəri, Mincevan, Ağstafa stansiyalarında stansiya rəisinin müavini və stansiya rəisi işləmişdir.

Bu fotoşəkliə baxanda ortaya belə bir sual çıxır: “Yaxşı bəs dahi xalq şairi ilə dəmiryol mühəndisinin belə yaxın əlaqəsi necə yaranmışdır?”. Burada da təəccüblü heç nə yoxdur. Əvvəla , Səməd Vurğun çox sadə, səmimi, el-obaya qaynayıb-qarışan bir insan olubdur. Ölkəmizin hər bir guşəsində onun ürək dostları, səmimi yoldaşları, ünsiyyət yaratdığı adamlar olubdur.Ancaq Mustafa Sadıqovla Səməd Vurğunun tanışlığının uzun tarixi vardır. Onlar bir-birini hələ Qazaxda oxuyarkən tanımışlar. Sonralar bu tanışlıq daimi dostluğa çevrilib. Səməd Vurğun dünya şöhrəti qazandığı günlərdə də dostu Mustafanı axtarmış, işgücü ilə maraqlanmış və imkan tapanda görüşüb söhbətləşmişdir.

Öz növbəsində Mustafa Sadıqov da dostu Səməd Vurğunu soraqlamış, hal-əhval tutmuşdur. Hətta bir dəfə çox çətinliklə böyük şairlə əlaqə yarada bilmiş və onu rəisi olduğu Mincevan stansiyasına görüşə dəvət etmişdir. Xoşbəxtlikdən Səməd Vurğun onun dəvətini qəbul etməyə vaxt tapmış və razılıq vermişdir. İndi təsadüfən bizim əlimizə düşmüş bu fotoşəkil də həmin görüş zamanı çəkilmişdir. 1955-ci il yanvarın 26-da keçirilən bu görüş bu gün şərəfli bir tarixə çevrilsədə də gənclərimiz üçün böyük örnəkdir. Çünki Səməd Vurğun nəinki Qazax mahalının, bütün Azərbaycanın fəxri, poeziyamızın iftixarıdır. Azərbaycanın dəmiryol tarixində xüsusi yeri olan Mustafa Sadıqovun dahi şairlə dostluğunun ən yaxşı sübutu olan bu tarixi fotoşəkil bizim ağstafalılar üçün əvəzsuz şan-şöhrətdir.

***Firdovsi Heydərli***
***Ağstafa Ağsaqqallar Şurasının sədri.***

# Biz Londonda olarkən

***Respublika Təhsil Nazirliyinin və Cənubi Qafqaz Boru Kəməri layihəsindəki tərəfdaşlar tərəfindən maliyələşdirilən “İcmalar üçün ingilis dili” layihəsi çərçivəsində ümumtəhsil müəssisələrində dərs deyən bir qrup ingilis dili müəllimi bu günlər Böyük Britaniyanın London şəhərinə səfər etmişlər. Səfərdə 10 nəfər ingilis dili müəllimi iştirak etmiş və onlardan 2 nəfəri-Vaqif Nəsibov və Günay Kərimova rayonumuzun ümumtəhsil məktəblərində işləyən ingilis dili müəllimləri olmuşlar.***



Əməkdaşımız hər iki müəllimlə görüşmüş və onların London xatirələri barədə danışmağı xahiş etmişdir:

-Vaqif Nəsibov. O 1978-ci ildən Saloğlu kənd tam orta məktəbində ingilis dili müəllimi işləyir. V.Nəsibov ingilis dili müəllimi kimi ilk dəfə idi ki, xaricə səfər edirdi. Söhbət zamanı müsahibimiz bildirdi ki, Londona 7 günlük səfəri ona çox şey bəxş etdi. Həmin günlər London haqqında bir çox yenilikləri öyrəndik. Yüksək səviyədə keçirilən təlimdə iştirak etdiyim üçün özümü şanslı və xoşbəxt müəllim hesab edirəm. Düşünürəm ki, Londona getmək hər bir rayon müəlliminin ən xoş arzularından biridir.

Təlimlərimiz olduqca yüksək səviyyədə keçirildi. Mark Smith və Vittorio Palossi tərəfindən keçirilən təlimlər zamanı çox dəyərli məlumatlar əldə etdik. Onların təlim metodları çox yaxşı idi. Təlimdə əsasən dərslərin planlaşdırılması və daha da maraqlı olması üçün lazımı məlumatlar öyrəndik. Səfər müddətinin qısa olmasına baxmayaraq Londonda bir çox tanınmış insanlarla ünsiyyətdə olduq ki, bu da bizim dil bacarıqlarımızın daha mükəmməlləşməsinə kömək etdi. Düşünürəm ki, təlimdə öyrəndiklərimi dərslərimdə layiqincə tətbiq edəcəm. Bu imkanı bizə yaratdıqlarına görə Təhsil Nazirliyinə və digət aidiyyatı qurumlara dərin minnətdarlığımı bildirirəm.

Günay Kərimova. O 2006-cı ildən Qıraq Kəsəmən kənd tam orta məktəbində ingilis dili müəllimi işləyir. G.Kərimova ona verdiyimiz sualları cavablandıraraq dedi:

-Həyatımda ilk dəfə idi ki, xaricə səfər edirdim. Bu səfər zamanı Londonda yerləşən Vimbledon ingilis dili məktəbində təlimlərdə iştirak etdim. Təlim müddətində dil bacarıqlarımızın inkişaf etdirilməsi məqsədilə bizi yerli ailələrin mənzillərində yerləşdirdilər. Həmin ailələr məktəblə sıx əlaqəsi olan sınanmış ailələr idi. Onlar bizə olduqca isti, mehriban münasibət göstərdilər. Həmin görüşdə biz çalışırdıq ki, bu ailələrin üzvləri ilə daha sıx əlaqə yaradaq açıq söhbətlər edək. Çünki bu bizim dil bacarıqlarımızın və vərdişlərimizin inkişafına müsbət təsir edən amillər idi. Təlimlərə gəldikdə isə onu deyə bilərəm ki, bu qısa müddətdə biz çox şeylər öyrəndik. Şagirdlərin biliklərinin qiymətləndirilməsi, tədris prosesində hansı üsullardan istifadə etməklə daha yaxşı nəticəyə nail olunması və sair kimi məsələlər məndə xoş təsuratlar yaratdı. 7 günlük səfərin necə başa çatdığını hiss etmədim. Düşünürəm ki, səfərdə əldə etdiyim bilik və təcrübə gələcək fəaliyyətimdə mənə stimul olacaq.

## SƏNƏ HƏSRƏT QALMIŞAM

Yoxluğunla sanma ki, çox asan barışıram,
O gözəl baxışınçün yanıram, alışıram,
Dəlitək öz-özümlə hey səndən danışıram,
Gecə-gündüz adını anmaqdan yorulmuşam,
Sənə həsrət qalmışam.

Səni sevir bu ürək, bir biləsən ki, necə,
Ürəyimi göynədir, duyğularım səssizcə,
Gizlicə göz yaşımı axıdaraq hər gecə,
Səndən qalan rəsmini oxşayıb sarılmışam,
Sənə həsrət qalmışam.

Bu necə bir sevgidir, bu necə bir məhəbbət,
Vüsalıda əziyyət, həsrətidə əziyyət,
Sənsizlikdə anladım, sənsiz yaşamaq zillət,
Yoxluğundan dolayı, solmuşam, saralmışam,
Sənə həsrət qalmışam.

***Sevda Kərimli***

***Ölkə başçısı cənab İlham Əliyevin göstərişinə və tapşırığına əsasən respublikamızın hər yerində olduğu kimi Ağstafada da kənd təsərrüfatının sürətlə inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Cari ilin yaz tarla işlərinin gedişi onu göstərir ki, kənd əməkçiləri bolluq, bərəkət mənbəyi olan torpaqdan bərk yapışmış, bol məhsul tədarük etmək üçün bütün qüvvələrini səfərbər etmişlər. Rayonda aparılan əkin-səpin işlərinin gedişi barədə məlumat verməyi Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi İltifat Əliyevdən xahiş etdik. O,suallarımızı cavablandıraraq dedi:***

# Kənd təsərrüfatı sürətlə inkişaf etdirilir

-Mən böyük fərəh və inam hissi ilə deyə bilərəm ki əvvəlki illərlə müqayisədə 2017-ci il sözün əsil mənasında kənd əməkçiləri üçün əsaslı dönüş ili olacaqdır. Bu ondan irəli gəlir ki, möhtərəm prezidentimiz cənab İlham Əliyevin tapşırığına əsasən rayon rəhbərliyi bu sahənin inkişaf etdirilməsini ön plana çəkmiş və bu işdə bütün imkanlardan istifadə olunmasını bizə tapşırmışdı. Əvvəlki illərdən fərqli olaraq cari ildə əkin sahələrinin şumlanması bütün kəndlərdə vaxtında başa çatdırılmış, rayonda mövcud olan bütün texnika bu sahəyə cəlb olunmuşdur.

Rayonda taxılçılığın daha da inkişaf etdirilməsinə diqqət artırılmış, keçən ildəkindən 12 min hektar çox sahəyə taxıl səpilmişdi. Rayonda ilk dəfə olaraq 500 hektar sahədə çuğundur əkini aparılması nəzərdə tutulmuş və ötən müddətdə bu işə başa çatdırılmışdır. Təkcə Eynallı kəndində 100 hektar,Aqroservis MMC-də 152 hektar sahədə əkin-səpin işləri aparılmış, Zəlimxan, Köçəsgər, Pirli, Dağ Kəsəmən kəndlərində də bu iş uğurla davam etdirilir.

Belə bir faktı qeyd etmək istərdim ki, əgər keçən il rayonda 300 hektar sahədə günəbaxan əkilmişdisə, bu il 1000 hektar sahədə günəbaxan, 200 hektar sahədə yazlıq qarğıdalı, 10 hektar sahədə sarımsaq, 200 hektar sahədə kartof əkiləcəkdir. Nəzərədə tutulan əkinsəpin işləri bir çox kəndlərdə demək olar ki, tam başa çatdırılmışdır.

2016-cı ildə uzun illərdən sonra rayonda ilk dəfə olaraq barama yetişdirilmiş və 2 tona yaxın məhsul tədarük olunmuşdur. Cari ildə gəlirli sahə olan barama yetişdirilməsinə diqqət daha da artırılmış və bu il rayonda 5 tona yaxın barama tədarük olunması planlaşdırılmışdı.

Üzümçülüyün inkişaf etdirilməsi sahəsində də dönüş yaranmış, 60 min üzüm tingi əkilmiş, 100 hektar sahədə fındıq tingi basdırılmışdı.

Bütün bunlar rayonda yeni iş yerlərinin açılmasına təminat vermiş, əhalinin maddi rifah halının daha da yaxşılaşdırılmasına şərait yaratmışdır ki, bu da rayonda maliyyə dövriyəsinin 3,5 milyon manat artmasına imkan verəcəkdir. Bir sözlə 2017-ci il rayonumuzda kənd təsərrüfatında sürətli inkişaf illərindən biri olacaqdır.

1-1.qxd 17.04.2017 13:12 Page 4



## Bizim müsahibə

# Yenidən dünyaya gəlsəm yenə müəllim olaram




*Xalidə İsmayılova 1955-ci ildə rayonun Köçəsgər kəndində anadan olub. O, orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji Universitetinə qəbul olub. Ali təhsil aldıqdan sonra hamı kimi Xalidə müəllimə də əmək fəaliyyətinə başlamış və 1976-cı ildən hal hazıra kimi Köçəsgər kənd 2 saylı tam orta məktəbində ixtisası üzrə Azərbaycan dili və ədəbiyyat müəllimi işləyir. Onun barəsində kiçik bir məqalə yazmaq fikrinə düşəndən sonra Köçəsgər kəndinə üz tutdum və onunla işlədiyi məktəbdə görüşdüm. Xalidə müəllimə ilə xeyli söhbətdən sonra ona bir neçə sual verdim. Xalidə İsmayılova təmkinlə mənim suallarımı cavablandıraraq dedi:*

-Müəllimlik peşəsinə hələ uşaqlıq illərində mənim böyük marağım var idi. Uşaq olarkən qonşuluğumuzda kirayədə yaşayan bir müəllimlə tez-tez görüşür və onun peşəsinə həsəd aparırdım. Mən həmin müəllimin uşaqları ilə dərslərimi bir yerdə hazırlayır, bir yerdə oynayırdım. İmran müəllim hər gün çantasını əlinə alıb məktəbə gedəndə ona həsrətlə baxardım. O şagirdlərə dərs demək üçün başqa rayondan gəlmişdi. Elə həmin vaxtdan da məndə müəllim peşəsinə böyük maraq yarandı. Və elə həmin anlardan mənim qəlbimdə böyük bir həvəs baş qaldırdı və özüm özümə dedim ki, mən də müəllim olacağam.

Yaxşı müəllim olmaq üçün gərək öz üzərində həmişə çalışasan. Təkcə onu deyə bilərəm ki, müəllim nə qədər savadlı olsada hər zaman mütaliyə etməli bu peşədəki yeniliklərlə maraqlanmalıdır. Müəllim sözün əsl mənasında "müəllim" olduğunu dərk etməli, hər zaman cəmiyyətin diqqətində olduğunu bilməlidir. Ən başlıcası isə gənc nəslin təlim-tərbiyəsində real olmalı, şagirdləri bir-birindən seçməməli, şagirdlərlə onların anlayacağı dildə danışmalıdır. Ən başlıcası isə hər bir müəllim ixtisasından asılı olmayaraq şagirdlərdə elə maraq yaratmalıdır ki, onlar həmin müəllimin dərs dediyi fənni ürəkdən sevsin.

Artıq müəllimlik fəaliyyətimdə uzun illər arxada qalmışdır. Əminliklə deyə bilərəm ki, bu illərdə heç nə itirməmişəm. Qazandığım isə böyük bir kəndin, elin, obanın sevgisi, məhəbbəti olmuşdu. Məhz elə buna görə də müəllim olduğum üçün fəxr edirəm. Peşəsini sevən müəllimi bağbana bənzədirəm. Onun yetişdirdiyi meyvələr hər yana səpələnir. Mən hara getsəm, hansı qapını döysəm qarşıma çıxan hər bir kəs məni böyük sevgi və məhəbbətlə qarşılayır. Ömrümün arxada qalan illərində mühəndislər, həkimlər, hüquqşunaslar, müəllimlər və neçə-neçə ixtisas sahibləri yetişdirmişəm. Bu gün onları görəndə fəxr edirəm, qürur hissi keçirirəm. Müəllim üçün bundan böyük heçnə ola bilməz. Əgər mən yenidən dünyaya gəlsəm tərəddüd etmədən deyərəm ki, yenə müəllim olaram.

***Nəcibə Vəliyeva***
***Ağstafa rayon təhsil şöbəsi, ictimaiyyətlə əlaqələr üzrə məsul şəxs.***

# Viktorina qalibi

***Tarixi viktorina ümummilli lider Heydər Əliyevin doğum gününün 94-cü ildönümünə həsr edilmiş və Azərbaycanın qərb bölgəsinin hərbi qulluqçuları, tələbələri və şagirdləri arasında keçirilmişdir. Viktorinanın məqsədi milli tariximizin və mədəniyyətimizin təbliğ edilməsi, Müstəqil Azərbaycanın quruluculuğunda və inkişafında ümummilli lider Heydər Əliyevin yolunun təbliği, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi, Azərbaycan sərkərdələrinin, Milli qəhrəmanlarının döyüş təcrübələrinin təbliğ edilməsi, gənclərin mədəni asudə vaxtının təşgili məsələlərini cavablandırmaq olmuşdur.***

Rayonumuzda keçirilən viktorinada 6 məktəb iştirak etmişdir. Onbirinci sinif şagirdləri viktorinanın suallarına düzgün və dəqiq cavab verməyə çalışmışlar. Həsənsu, Dağkəsəmən kənd2saylı, şəhər 1 və 2 saylı, Qırılı kənd tam orta məktəblərinin şagirdlərindən fərqli olaraq Qaçaq Kərəm kənd tam orta məktəbin şagirdlərinin bilik və bacarıqları daha üstünlük təşkil etmişdir. Beləliklə şagirdlərdən Afiq Süleymanovun, İsmayıl Əliyevin, Şəbnəm İsmayılovun, Hicran Xasıyevanın, Aişən Həmidlinin və Fidan Nəsirlinin cavabları məktəbə birincilik qazandırmışdır.

Viktorinanın qalibi olan Qaçaq Kərəm kənd tam orta məktəbin şagirdləri 2-ci tura vəsiqə qazanaraq biliklərini Gəncə şəhərindəki viktorinada nümayiş etdirəcəklər. Onlar burada da fərqlənsələr may ayında keçiriləcək final oyununda iştirak edəcəklər.

# Kənd yolları əsaslı təmir olunur



***Yol həyatdır, mədəniyyətdir. Sosisal-iqtisadi inkişafın mühüm göstəricilərindən biri olan yol tikintisi həmişə diqqət mərkəzində olmuş və bu ənənə bu gün də davam etməkdədir. Son illər bu istiqamətdə rayonda xeyli iş görülmüş, əksər kənd yolları yenidən qurulmuş, abadlaşdırılmışdı.***



Xeyli vaxtdır ki, rayonun ən iri yaşayış məntəqələrindən biri olan Ağstafa-Köçəsgər yolunun abadlaşdırılmasına başlanılmış və ötən müddətdə həmin yolda xeyli iş görülmüşdür. Uzunluğu 13 kilometr olan bu kənd yolunun yenidən qurulması uzunluğu 2,5 kilometr olanEynallı-Qırlı kənd yolunun da bərpasına imkan yaratmışdır. Ötən müddətdə Ağstafa-Köçəsgər yolunda köhnə asfalt örtüyün qazınması işi başa çatdırıl mış və yol inşaatçılarının gərgin əməyi sayəsində bir neçə gündür ki, həmin yolda asfalt örtüyün salınması işinə başlanılmışdır.

Eyni vaxtda Eynallı-Qırlı kənd yolunda da qızğın iş gedir. Burada yolun əsas hissəsinin xırlanması işi yekunlaşdırılmışdır. Rayon icra hakimiyyətinin müvafiq şöbəsində bildirdilər ki, qeyd olunan yolun keçdiyi Həsənsu kəndinin qurtaracağında yerləşən Həsənsu körpüsünün də təmiri nəzərdə tutulur.

İnşaatçılar Ağstafa-Köçəsgər yolunda işləri başa çatdırdıqdan sonra Ağstafa, Aşağı Kəsəmən, Zəlimxan kəndlərindən keçən yolun təmirinə də başlayacaqlar.

Kənd əməkçilərinin böyük sevincinə səbəb olan bu işlər ilk növbədədövlətimizin kənd əməkçilərinə göstərdiyi növbəti qayğının parlaq təzahürü kimi qiymətləndirilir. Hazırda Ağstafa-Köçəsgər, Eynallı-Qırlı kənd yollarında abadlıq işləri sürətlə davam etdirilir. Həmin yollarda işlərin cari ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulur.

## Etibarsız sayılır

Vurğun qəsəbə sakini Əliyev Məhəmməd Muxtar oğlunun adın olan Torpağın mülkiyyətə verilməsinə dair JN-0049 nömrəli (kod 50202018) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini mərhum Vəliyeva Arifə Mehralı qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-1098 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini Vəliyev Məmməd Rafiq oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-1101 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini Bəndəliyev Əhliman Həsən oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-1068 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini Bəndəliyeva Aygün Əhliman qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-1069 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini Bəndəliyev Azad Əhliman oğlunun adına olan Torpağn mülkiyyətə verilməsinə dair JN-1070 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa rayon Qarayazı qəsəbə sakini mərhum Nəbiyeva Nazan İsmayıl qızının adına verilmiş 339 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Xılxına kənd sakini Bayramov Fizuli Yaqub oğlunun adına verilmiş JN-160 nömrəli (kod:50206038) Torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Xətai kənd sakini Nağıyev Akif Bayram oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair 187F nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Xətai kənd sakini Nağıyev Məşədiəli Bayram oğlunun adına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair 173F saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Qıraq Kəsəmən kəndində yaşamış mərhum Bayramova Bağdagül Mahmud qızının adına verilmiş şəxsi evin 128 nömrəli qeydiyyat vəsiqəsi və 502-58/22 nömrəli Torpaq pasportu itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini, mərhum İsayeva Fatma Məhəmməd qızının adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-1002 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Dağ Kəsəmən kənd sakini Məhəmmədov Bədir Teymur oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-648 nömrəli Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Yuxarı Göycəli kənd sakini Salehov Yadulla Abbasəli oğlunun adına verilmiş Torpağa mülkiyyət hüququna dair JN-555 nömrəli (kod 50200018) Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR: İBRAHİM ƏLİYEV

Həmtəsisçi: "Ağstafa" qəzetinin jurnalist kollektivi
Şəadətnamə № 308

Redaksiya heyəti
L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.

Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10
Tel: 5-14-56
mob: (050) 344-26-20
Tiraj: 1000